# Düşünən və düşündürən şair



Yusif YUSİFOV

Öz bədii yaradıcılığında yaratdığı dəyərli incilərlə, müsbət mənəvi-əxlaqi keyfiyyətlər aşılamaqla müasir milli ədəbiyyatımızı daha da zənginləşdirməyə çalışan, ədəbi fəaliyyəti boyu ən zəngin və əsil bilik mənbəyi saydığı həyatdan bəhrələnən, çoxlarına adi görünən həyat həqiqətlərindəki qeyri-adilikləri, möcüzələri, sirrləri anlamaqdan, az, yığcam sözlərlə çox mənalar ifadə etməyi bacarmaqdan ötrü həmişə düşünən, düşündürən, özünü dərk etməyi dünyanı dərk etməyə bərabər sayan, mürəkkəb xarakterli bədii yaradıcılıq prosesində dəfələrlə üzləşdiyi söz əzabını saatlarla, günlərlə çəkməkdən qorxmayan, əksinə bundan estetik zövq alan ədəbi şəxsiyyətlərdən biri də sevimli şairimiz Musa Ələkbərlidir.

O, sonsuz məhəbbətlə vurulduğu xalqına, Vətəninə qırılmaz tellərlə bağlı olan, heç zaman şöhrət dalınca qaçıb özünütəbliğə təşəbbüs göstərməyən şairdir. Musa Ələkbərli sadəliyi uca tutur və onu insan üçün çox qiymətli mənəvi keyfiyyət sayır. Bizdə belə bir təsəvvür formalaşmışdır ki, onun varlığına, yaradıcılığına dünyaya göz açdığı, böyüyüb boya-başa çatdığı doğma Vətənimizin bölünməz bir parçası olan Gədəbəyin gözəl, füsunkar təbiəti, dağlarının, meşələrinin təmiz havası, ətri, bulaqlarının saf, sağlam suyu, çaylarının şəffaflığı, şırıltısı, orada yuva qurmuş quşların həzin nəğmələri hopmuşdur.

Musa müəllimlə görüşüb söhbətləşəndə sanki Gədəbəydə oluruq, maraqlı, duzlu söhbətləri, doğma el-obasının özəl adət-ənənələri ilə bağlı ürək açan şirin danışığı, rayonun camaatının psixoloji həyat tərzi barədə etnoqrafik, psixoloji məzmunlu informasiyalar onun doğma yurduna - təbiətin dilbər bölgəsi Gədəbəyə qızğın, odlu məhəbbətinin aydın, parlaq və canlı göstəriciləridir.

Şairin el-obaya, təbiətə həsr etdiyi şeirləri ilk öncə onun vətənlə, təbiətlə bağlı düşüncələrini, eləcə də, onlara sevgisini, müsbət emosional münasibətini göstərir. Musa Ələkbərli belə şeirlərində sanki qələmi fırçaya döndərir, tərənnüm etdiyi obyektlərin sənətçi (rəssam) kimi tablolarını göz önündə canlandırır:

Bura dağ kəndidir, hər yanı meşə,
Ağaclar yamyaşıl alovla yanır.
Təpələr dikəlib üzü günəşə,
Hər təpə üstündən bir ev boylanır.

Baxma ki bu evlər pərən-pərəndi,
Arada istək var körpü yerinə.
Gör neçə həyəti, gör neçə həndi
Cığırlar bağlayıb biri-birinə.

Şairin şeirindəki misralar obrazlılıq, ifadəlilik bildirən bədii lövhələri əks etdirir. Ağacların yaşıl rəngi yamyaşıl yanan alova oxşadılması, təpələrin üzügünəşə dikəlməsi, evin boylanması, insana məxsus istək anlayışın (sözünün) körpüyə bənzədilməsi, neçə-neçə həyəti, həndi bir-birinə cığırların bağlaması, yaşıl əlamət bildirən sözün - sifətin yamyaşıl formasında əlaməti daha güclü və şiddətli dərəcədə bildirməsi və s. şeirin obrazlılığı, məcaziliyi əks etdirməsi, metoforik rəngə boyanmasıdır. Bunlar sənətkarın poetik, obrazlı təfəkküründən, böyük yaradıcılıq qüdrətindən xəbər verir.

Musa Ələkbərlinin poeziyası, bu poeziyanı yaradan, formalaşdıran, onun nüvəsi sayılan poetik parçalar şairin sözlə düşündüyünü və düşündürdüyünü, onun üzərində ardıcıl yaradıcılıq axtarışları apardığını çox aydın şəkildə göstərə bilir:

Hardasa qovuşur, ayrılan cığır,
Çatır bir-birinə yamacı-yalı.
Cığırlar hamısı bir yola çıxır,
Axı, adamların birdir amalı.

Daim uzaq olur hər dərdi-sərdən,
Uzaq şəhərlərə yollanır bu yol.
Peşiman qayıtsa biri səfərdən,
Pərt olur, uşaqtək allanır bu yol.

Misraların tərkibindəki hər bir sözü yerli-yerində işlətməsi, onların şeirin ümumi məzmununun formalaşmasını təmin edən, bu məzmunun gerçəkləşməsi üçün semantik (məna) yükünün daşıyıcısı funksiyasını yerinə yetirən poetik elementlər olduğu barədə oxucuda dolğun təsəvvür yarada bilməsi, Musa Ələkbərlinin sənətkarlıq qüdrətindən, kamil söz ustası olmağından geniş danışmağa imkan verir.

Canlı danışıqda həmişə rastlaşdığımız ümumişlək sözlərin bədii üslubda yeni keyfiyyət qazandığını, gündəlik nitqdə - ünsiyyət prosesində adi nominativ vəzifəni - adlandırma funksiyasını yerinə yetirən leksik vahidlərin sənətkar qələminin məhsulu sayılan ədəbi yaradıcılıq nümunələrində keyfiyyətcə dəyişdiyini görürük. Bədii mühitdə sözlərin, söz formalarının - ifadələrin məcazlaşması dil vahidlərinin keyfiyyətcə dəyişməsi mənaya aydınlıq gətirir. Məcazi məna adı geniş anlayışın ifadə görümüdür, yəni məcazı və bir neçə növü olduğu üçün bu adla yanaşı, həmin söz birləşməsi formasına cəm şəkilçisi (-lar) artırmaqla məcazi mənalar adı ilə işlədilir. Məcazi məna adı həm ümumi, həm də konkret xarakter daşıyır. Bədii təsvir vasitələri - təşbeh, metafora, sinexdoxa və s.məcazi növləridir.(səh.31) Misradakı cığır təkdə işlənən söz çoxluğu bildirir. Yəni cığırın qovuşması cığırların qovuşması deməkdir. Burada cığır metoforadır. Qovuşmaq hərəkəti suya, çaya, dənizə və s. eləcə də, məcazi mənada insana aiddir. Cığırın digər cığırlarla qovuşması, göstərilən sözün (cığırın) metafora - məcazın ən parlaq növü olduğunu göstərir. Bədii ədəbiyyatın isə başlıca xarakterik əlaməti obrazlılıqdır. İfadəliliyin, obrazlılığının emosionallığın istedadlı şair Musa Ələkbərlinin yaradıcılığının da özəyini təşkil etdiyini söyləyənlərə tamamilə haqlıdırlar. Bu söz ustadının zəngin yaradıcılığının iki özəkli olduğunu demək daha doğrudur. İkinci özək onun oxucuları düşünməyə və düşündürməyə səsləyən poeziyasının elmiliyidir. Bədiiliklə bərabər güclü elmiliklə bəzənmiş ədəbi yaradıcılığın daşıyıcısı statusu qazana bilməsi Musa Ələkbərlinin öz böyük sələflərinin yaradıcılığını dərindən, hərtərəfli öyrənməsi, N.Gəncəvinin, M.Füzulinin və Səməd Vurğunun ədəbi ənənələrini qoruması, inkişaf etdirməsi ilə sıx bağlıdır. Bu məşhur klassiklərin yaradıcılığı onun həyatında və ədəbi fəaliyyətində böyük məktəb rolunu oynamışdır. Adları çəkilən klassiklərin zəngin ədəbi irslərini mükəmməl öyrənməsi, onların həyatın müxtəlif sahələrinə dair hikmətli, müdrik fikirləri ilə tanış olması Musa Ələkbərlinin talantlı şair, sağlam ruhlu ziyalı kimi formalaşmasına, inkişaf etməsinə müsbət təsir göstərmişdir. Onun böyük sələfi Nizami sözün, xüsusən yazılı sözün insanın gözünü açan, ona həyatı başa düşmək, anlamaq imkanı verdiyini söyləmiş, hikmətli, dəyərli söz deməyin çox çətin iş olduğu fikrini irəli sürmüşdür. Belə sözlərin hər birisini qiymətli bir gövhər adlandıran dahi söz ustadı "onu daşı bağrından çıxartmaq üçün yeddi göyün göbəyi partlayır" fikrini söyləmişdir. (səh. 121) O, oğlu Məhəmmədə nəsihətində elmi öyrənməsini istədiyini bildirmişdir:

*Bir elmi öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*

Nizami elmin insanlar üçün ağır və qaranlıq həyatı işıqlandıran günəş olduğunu söyləmişdir (7,s.12).

Musa Ələkbərlinin konkret mövzularda yaratdığı şeirlər onun yaradıcılığının həm rəngarəngliyidir, həm bədii həllinə girişdiyi məsələləri əhatə dairəsinin genişliyini, həm də məzmunca dolğunluğunun göstəricisidir. Ədəbi fəaliyyətin müxtəlif yönümlərdə olması şairin şeir və poemalarını ayrı-ayrı tematik qruplara, qollara ayırmağa, onların hər birinin başlıca fərqləndirici əlamətlərindən danışmağa, söhbət açmağa zəruri ehtiyac yaradır. Bunlar həm də Musa Ələkbərlinin yaradıcılığının çoxşaxəliyinin parlaq göstəriciləri sayıla bilər. Onun yaradıcılığında əsasən hamı üçün doğma, istəkli * varlıqlara - müxtəlif cinsli, yaşlı uşaqların, körpələrin əzizlənərək tərənnüm edildiyi şeirlər çox maraqla oxunan, ata-analarda, babalarda, nənələrdə, ümumiyyətlə, bütün insanlarda xoş ovqat yaradan sənət inciləridir. Onlar bizi bir daha yaddaşlarımıza əbədi hopmuş uşaqlıq illərinə qaytarır. Bir-birindən gözəl, eyni dəyərli o şeirlər həmişə yaddaqalan həmin illərə bizi bir daha qaytarır. Belə şeirlər Musa Ələkbərlinin həssas qəlbli, mehriban, insanlara, xüsusən uşaqlara qarşı qayğıkeş, humanist şəxs olduğunu göstərir. "Ürəyimin qapısından keçənlər" (Bakı-2018) kitabında "Ruslan, gizlənim tap..." (səh.249), "Balaca Tamaraya" (s.250-251), "Gəlib" (səh.252-253), "Xoş gəldin, Səfa gəldin dünyaya Nihat bala" (səh.254-255), "Gülümsən" (s. 256), "Şakirin İnci nəvəsi"(s.259-260), "Ay Əli" (s.261), "Balaca Sabirin bir yaşına"(s.262) adlı şeirlər qəlbimizdə uşaqlara olan sevgimizi daha da gücləndirir, alovlandırır. Uşaq mövzusunda yazılan bu şeirlərdə şair sanki maraqlı uşaqlıq çağlarına qayıdır və o yaddaşlarda qalan illəri bir daha yaşayır. Sevimli nəvəsi Ruslana həsr etdiyi bu şeirdə Musa Ələkbərlinin istəkli nəvəsinə dediyi şirin sözlər oxucuda nəcib hisslər, xoş duyğular oyadır, hikmətlərlə, müdrik kəlamlarla dolğun olan dilimizin zəngin söz ehtiyatından yetərincə bəhrələnməklə uşaqlarda, böyüklərdə ona məhəbbət hissi oyadır. Nitqində sözləri məharətlə işlədə bildiyi üçün həm uşaqların estetik zövqünü oxşayır, həm də onların lüğət ehtiyatını artırmağa xidmət göstərir. Şeirdə oxunan misralar söylənilənləri təsdiqləyən nümunələrdir:

Ruslan, gəl oynayaq bu gün doyunca,
Yorulub tez yatma, getməyək üzdən.
Oyuncaq tapmışıq, canlı oyuncaq,
Şənlənək, zövq alaq bir-birimizdən.

Sən mənim pişiyim, mən sənin atın,
Pişiyim atını mindikcə minsin.
Qoy ataq bu evi biz atım-atım,
Anan havalansın, nənən deyinsin.

Həmişə şad olur itirib-tapan,
Gizlənim, arxamca iməkləyib gəz.
Həyatda hər şeydən usanan baban
Nəvə oyunundan usana bilməz.

Unutma sən onun bu sözlərini,
Boynumdan qucaqla, köksümə yaslan.
Bir gün deməsəm də yum gözlərini,
Elə gizlənəcəm tapmayacaqsan.

İstedadlı şair kiçik yaşlı oxucularının bilik, anlaq, nitq səviyyələrinə uyğun sözlərdən istifadə etməklə uşaqların söz ehtiyatını artırmağı, lüğət tərkiblərini artırmağı, obrazlı təfəkkürlərini inkişaf etdirməyə, xarici aləmi anlamağa köməklik göstərmişdir. Musa Ələkbərlinin uşaqlara yazdığı şeirlərin nitqində sadəlik, aydınlıqla yanaşı, canlılıq və obrazlılıq vardır. Bütün göstərilənlər onun uşaqlara qayğıkeş münasibəti, onlara ürəkdən bağlılığı həmin mövzuda yaratdığı bədii lövhələrin təsirini gücləndirmiş, bu ədəbi yaradıcılıq nümunələrini estetik zövq mənbəyinə çevirmişdir. Onun həyatımızın yaraşığı, canlı bəzəyi olan, heç bir günaha batmayan tamamilə təmiz, saf varlıqları hərtərəfli səciyyələndirdiyi şeirləri Azərbaycan uşaq ədəbiyyatının qızıl fonduna daxil edilməyə tamamilə layiqdir. Son dərəcə səmimi, həssas qəlbli, təmiz ürəkli, dostlarına, tanışlarına böyük hörmət bəsləyən, onların arzu və istəklərinin gerçəkləşməsi üçün bilik və bacarığını əsirgəməyən, qarşıya qoyduğu məqsədə çatmaqdan ötrü bütün gücü ilə çalışan Musa Ələkbərli yüksək vətəndaşlıq ləyaqəti mövqeyindən çalışan, yaradan şairdir, ziyalıdır. Uşaqlara ithaf etdiyi dəyərli yaradıcılıq məhsulları zəngin dünyagörüşlü, yüksək talantlı, dərin və geniş düşüncəli bu yaradıcı ədəbi şəxsiyyətin gərgin zəhmətinin uğurlu bəhrəsidir. Yaradıcılıq prosesində yuxusuzluğa dözmək, sözləri bədii mətnin ruhuna, məzmununa uyğun, yerli-yerində işlətmək vərdişinə yiyələnmək dəfələrlə söz əzabını duymaq, onu yaşamaq bacarığı ilə əldə edilir. Bədii və elmi yaradıcılıqda çox uzaq keçmişdən indiyədək yaşayan bu ənənənin həmişə davam edəcəyinə, danılmaz həqiqət kimi baxılmalıdır. Musa Ələkbərli həyatımızın, ömrümüzün yaraşığı, canlı gələcəyimiz, sevincimiz, ömrümüzün bəzəyi, mənası saydığımız, həmişə şən, xoşbəxt, sağlam ömür yaşamalarını, arzu və istəklərinə çatmalarını arzuladığımız uşaqlara bəxş etdiyi "hədiyyələrinin" (şeirlərinin) hər biri özəlliyi ilə bir-birindən seçilir və formaca rəngarənglikləri onlara gözəllik verir. Şairin məzmun, forma rəngarəngliklərinin daşıyıcıları olan uşaq şeirlərini bir-birindən fərqli üsullarla yazması onun bədii yaradıcılığına məxsus orijinallığın, özəlliyin parlaq göstəriciləri sayıla bilər. Bu baxımdan o yaradıcılığının müəyyən hissəsi uşaqlara ithaf edilmiş şeirlər olan başqa sənətkarlardan fərqlənir. Musa Ələkbərlinin uşaqlara ithaf etdiyi şeirlər eyni mövzulu olsalar da, məzmunca fərqlənən dəyərli yaradıcılıq axtarışlarıdır. Onlar obrazlı adlarına, maraqlı yazılış formalarına görə də eyni deyildir. Ona görə də bu şeirlər özəllikləri ilə seçilən poeziya nümunələri adlandırıla bilər. məsələn: Musa Ələkbərlinin nəvəsi Ruslana yazdığı "Ruslan, gizlənim tap..." (səh.249) şeiri ilə "Balaca Tamaraya"(S.249-251), "Gəlib" (səh.252-253), "Xoş gəldin, Səfa gəldin dünyaya Nihat bala" (Səh.254-255), 257-258-ci səhifələrdəki adsız şeirlər, "Gülümsən" (s. 256), "Şakirin İnci nəvəsi"(s. 259-260), "Ay Əli" (s.261), "Balaca Sabirin bir yaşına" (s.262) şeirləri 472 səhifəlik "Ürəyimin qapısından keçənlər" (Bakı. Zərdabi LTD, MMC) kitabından götürmüşük. Əlli ildən artıqdır ki, yazıb-yaradan, ümumxalq məhəbbəti qazanan şairin müxtəlif vaxtlarda işıq üzü görmüş əsərlərini özündə birləşdirən bu möhtəşəm kitabın ideya müəllifi professor Qəzənfər Paşayev, redaktoru Bəhlul Ataxallı, tərtib edəni Gültac Ələkbərlidir. Uzun illərdən bəri böyük zəhmətlə dolu yaradıcılıq axtarışlarının uğurlu tapıntıları adlanmağa layiq şeirlər şairin ürəyində yer tutmuş adamlara ithaf olunmuşdur. Sənətkarın ürəyinin bütün yanğısını, hərarətini filologiyanın müasir tələblərini ödəyən ədəbi-bədii nitqdə gerçəkləşdirən bu kitabın da başqa kitabları kimi ürəklərdə yer tapacağına, həvəslə oxunacağına, əbədi yaşayacağına böyük inamımız vardır. Adlarına ithaf edilmiş şeirlərin kitabda çap olunduğu bugünkü körpələr, uşaqlar arasında gələcəkdə məşhur, tanınmış şəxsiyyətlərin yetişəcəyinə, onların da bu dəyərli kitabı xüsusi maraqla oxuyacaqlarına və ömürləri boyu yaddaşlarında qoruyub yaşadacaqlarına şübhə yoxdur.

---

*(6*Azərbaycan Ədəbiyyatı tarixi 3 clddə, I cild. Bakı 1960.575 səh.*
*7*A.A.Nəzərova, M.A.Babayeva N.Gəncəvinin hikmətli sözləriBakı 2010.48 səh.)*

**(Davamı 7-ci səhifədə)**

*(Əvvəli 5-ci səhifədə)*

Musa Ələkbərlinin körpələrə, kiçik yaşlı, hələ heç bir günaha batmamış, mənfi əxlaqi keyfiyyətlərdən tamamilə uzaq məxluqlara həsr etdiyi şeirlər şairin uşaqları böyük məhəbbətlə sevdiyini, onların psixologiyasına yaşam, davranış tərzinə bələd olduğunu göstərir. Haqqında söhbət açdığımız bu füsunkar ədəbi nümunələr uşaq ədəbiyyatının ən gözəl nümunələri sırasına daxil edilə bilər. Həmin şeirlərin maraqlı, tərbiyəvi məzmunu ilə yanaşı, çox axıcı nitq-üslub xüsusiyyətləri də vardır. Şeirlərdə uşaq nitqi üçün xarakterik sözlərə, ifadələrə çox rast gəlinməsi təbiidir. Doyunca oynamaq, yorulmaq, tez yatmamaq, üzdən getməmək, "canlı oyuncaq", "sən mənim pişiyim, mən sənin atın", həyatda hər şeydən usanan babanın nəvə oyunundan usana bilməməsi, "boynumdan qucaqla", "köksümə yaslan" və s. deyimlər uşaq nitqinin obrazlılığını, ifadəliliyini artırır.

Dilimizin zəngin söz xəzinəsinin incəliklərini yetərincə bilən ustad şair körpə nəvələr, övladlara öz sevgisini, məhəbbətini ifadə etməkdən ötrü nitqi canlandıran, gözəlləşdirən, sevgisini, isti münasibətini, məhəbbətini ifadə etməkdən ötrü layiq bildiyi ən dəyərli, ən "şirin", ən "dadlı-duzlu" sözləri, ifadələri onlara nəvazişli, xoş, mülayim çalarlı müraciətlərində, deyimlərində işlədir, ən ürəyəyatımlı, "şirin, duzlu" sözlərlə, ifadələrlə bəxşişləyir. Musa Ələkbərlinin uşaqlara yazdığı şeirlərin lüğət tərkibinin çox hissəsini şairin balaca uşaqlara (oğlan və qızlara) xoş münasibətini, sevgisini, məhəbbətini və nəvazişini bildirən sözlər təşkil edir. İstedadlı şair uşaqlara ithaf etdiyi şeirləri uşaqların doğmalarının - babalarının, atalarının dilindən (nitqindən) deyil, birbaşa öz nitqi ilə verir. Məsələn şairin nəvəsi Ruslana yazdığı şeirdə oxuyuruq:

Sən mənim pişiyim, mən sənin atın,
Pişiyim atını mindikcə minsin.
Qoy ataq bu evi biz atım-atım,
Anan havalansın, nənən deyinsin.

Həmişə şad olur itirib-tapan,
Gizlənim, arxamca iməkləyib gəz.
Həyatda hər şeydən usanan baban
Nəvə oyunundan usana bilməz.

Şair "Balaca Tamaraya" şeirinin başlanğıc misrasından qabaq, şeirin adından əvvəl "Babası Elman Qasımovun dilindən"; "Xoş gəldin səfa gəldin dünyaya Nihat bala" adı ilə şeirin özü arasında "Dostum Namiqin dilindən", sözləri yazılmışdır. Bu baxımdan komponentli şeirlər şərti xarakter daşıyır, yəni həmin şeirlərin adlarının altından kiminsə dilindən yazılsa da göstərilən şeirlər əslində müəllifin öz nitqindən yazılmışdır. Onun ədəbi üsuldan yararlanmaqda məqsədi babalar, atalarla övladlar arasında məhəbbəti, doğma münasibəti emosionallıq, obrazlılıq baxımından daha güclü, təsirli ifadə etmək olmuşdur. Çünki uşaqların doğmaları - ata-anaları, baba-nənələri və s. onlara - körpələrə, uşaqlara öz nitqlərində ən nəvazişli, yalvarış, əzizləmə çalarlı sözlər, ifadələr işlətməkdən doymurlar, usanmırlar. Musa Ələkbərli də istiqanlı, humanist, uşaqları çox sevən, onlara mehriban münasibət bəsləyən insan olduğuna görə uşaq mövzusunda yazdığı şeirlərdə babaların, ataların dilindən strukturlu deyimlərdən ədəbi üsul kimi bəhrələnir. Elə buna görə də onun özünün də uşaqlara ithaf etdiyi şeirlər uşaqlara güclü sevgini, məhəbbəti, xüsusi nəvazişi, müsbət emosional doğma, isti münasibəti təsirli, obrazlı bədii boyalarla əks etdirən, bildirən sözlər yetərincədir. Şeirlərinin bədii təsvir və ifadə vasitələri ilə bolluğu Musa Ələkbərlinin dilimizin söz xəzinəsinə hərtərəfli bələdliyindən, ondan yaradıcı şəkildə bəhrələnə bildiyindən geniş söz açmağa imkan verir. Şair, dostları Firdovsinin və Elmanın nəvəsi Tuncaya ithaf etdiyi şeirin, eləcə də başqa dostlarının nəvələrinə xoş, səmimi münasibətini daha güclü obrazlı, emosional şəkildə bildirmək üçün Azərbaycan dilinin tükənməz məcazlar silsiləsindən bədii təsvir vasitələrini ustalıqla seçmiş, yaratdığı poetik nümunələrlə ədəbiyyatımıza dəyərli töhvələr vermişdir. Konkret şeirlərə aid misraları diqqətə yönəltməyi məqsədəuyğun sayırıq.

Sular kükrədi daşdı,
Dedilər ki, çay gəlib.
Bu evə günəş doğub,
Ondördgünlük ay gəlib.

Adı obada, eldə
Gəzir ağızda, dildə.
Ad günüdü apreldə,
Gör nə gözəl ay gəlib.

(Dostlarım Firdovsinin və Elmanın nəvəsi Tuncaya ithaf etdiyi "Gəlib" şeirindən)

Gül qoxulu beşikdə
Rahat uyu, yat bala.
Şirinim, şəkərimsən,
Bal yuxuya bat, bala.

Anan ilə yolunu
İyirmi il gözlədik.
Yaxşı ki, sarsılmadıq,
Bu həyatdan bezmədik.

İndi ikimizin də
Günəşisən, ayısan.
Sən göyün mükafatı,
Sən allahın payısan.

(Dostum Namiqin dilindən "Xoş gəldin Səfa gəldin dünyaya Nihat bala" şeirindən)

Həm Aylinsən, həm Humay,
İkiadlı gülümsən.
Çıxan günsən, doğan ay,
Nur qanadlı gülümsən.
Evim şahlıq taxtındı,
Göydən gələn baxtındı.
Yeyilməli vaxtındı
Şirin, dadlı gülümsən. (Rəşadla Aybənizin dilindən "Gülümsən" şeirindən)

Şeirlərində övladlara, nəvələrə sonsuz sevgi, məhəbbət hissinin çox aydın, dolğun ifadəsi olanı ürəyindən keçən ən dəyərli, insanda ən xoş təəssürat, Ruh yüksəkliyi yaradan sözlərlə, ifadələrlə dəfələrlə tərifləməkdən, tərənnüm etməkdən heç vaxt usanmayan, əksinə bundan daha da ruhlanan, estetik zövq alan Musa Ələkbərli həm də uşaq ədəbiyyatının olduqca tutarlı, görkəmli yaradıcılarından biridir. Uşaq xarakterini, psixologiyasını, onların həyat tərzinin incəliklərini, nitqini yaxşı bilməsi kiçikyaşlıları yazdığı poeziya nümunələrinin maraqlılığına, yığcamlığına, ümumişlək sözlərə, ifadələrə bolluğuna, körpə, azyaşlıların anlaq, bilik və danışıq (nitq) səviyyələrinə görə yazdıqları tez əzbərlənir və yadda qalır. Yığcam şeirlərin sözlərin harmonik düzülüşü, ardıcıl sırası, maraqlı, mənalı sözlərin işlədilməsi bu poeziya parçaların həmişə yadda qalmasına səbəb olur:

Kamal babanın
Üç nəvəsi var,
Bu nəvələrə
Gəzməyə onun
Çox həvəsi var.
Hamı bilir ki,
Nəvə ürəkdir,
Baba istəyi
Ayrı istəkdir.
Üç gül yarpağı,
Sevinc ortağı,
Biri Sevgidir,
Biri Mələkdir,
Biri Çiçəkdir.

Musa Ələkbərli uşaq şeirlərində balacaların çox eşitdikləri sözlər daha çox yer verir.

Doğrudan da bir incidir
Şakirin İnci nəvəsi.
Yerin-göyün sevincidir
Şakirin İnci nəvəsi!

İnci sözü uşaqlara müraciətdə tez-tez rast gəlinən, körpələri əzizləmək məqsədilə, onların bənzədildiyi qiymətli əşyanı bildirən leksik vahiddir. Belə dəyərli, zövq oxşayan əşyaların adlarının balaca uşaqların xoşuna gəldiyini nəzərə alan şair kiçik yaşlı övladlara, nəvələrə həsr edilən şeirlərdə onları işlətməyi məqsədə uyğun saymışdır.

Böyük alim, nəzəri dilçiliyin banisi V.Humbolt Almaniyanın yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Dilçiliyin fəlsəfi məsələlərini özündə əks etdirən 1836-39-cu illərdə çapdan çıxmış "Yava adasındakı Kavi dili haqqında" kitabının "Bəşər dilləri quruluşunun müxtəlifliyi və onun insan nəslinin mənəvi inkişafına təsiri haqqında" adında giriş hissəsində V.Humboltun dili xalq ruhunun ifadəsi kimi başa düşdüyü göstərilir. Burada ümumi dilçiliyin banisi V.Humboltun xalqın təbiət və cəmiyyətlə dil vasitəsiylə əlaqədə olması, əlaqələndiklərini - təbiəti, cəmiyyəti dil prizmasından görməsi, xalqın bütün mənəvi fəaliyyətinin dildə öz əksini, təzahürünü tapması, dilin öz köklərinin bütün ən incə telləri xalq ruhuna bağlanması, xalqın dilinin onun ruhu, xalqın ruhunun onun dili olması haqqında nəzəri müddəalar öz əksini tapmışdır (5, 127-128)

Musa Ələkbərlinin bədii yaradıcılığı da, digər yazıçıların ədəbi yaradıcılıq nümunələri kimi Azərbaycan dilinin materialları əsasında yaranıb formalaşmışdır.



V.Humboltun dil haqqında konsepsiyası dünyanın bütün dillərinə aid edilə bilər. Böyük alman dilçisinin dillə bağlı nəzəri görüşündə müəyyən həqiqət vardır. Doğrudan da, ədəbiyyatın ilk ünsürü, başlıca materialı dilin söykəndiyi ən əsas dayaq, onun üçün təməl, bünövrə xalqdır. Ona görə də dilin ünsiyyət prosesində - nitqdə xalq ruhunu, mənəviyyatını, onun mədəniyyətini, psixologiyasını, dünyagörüşünü, həyatla bağlı düşüncələrini formalaşdırması, gerçəkləşdirməsi və ifadə etməsi danılmaz həqiqətdir. Elə xalq dili (ümumişlək xalq dili), xalq ədəbiyyatı və s.adlar da bununla bağlı yaranmışdır. Dilin gücü, qüdrəti, gözəlliyi xalq ruhuna bağlılığında, onu özündə yaşatmasında və qoruyaraq gələcək nəsillərə çatdırmasıdır.

Musa Ələkbərlinin şeir və poemalarının böyük oxucu auditoriyasına yol tapmasının, maraqla oxunmasının, əbədi yaşamaq hüququ qazanmasının başlıca səbəbi xalqın ruhu ilə bağlılığıdır. Xalq ruhu şairin bədii yaradıcılığının qolu-qanadı, döyünən ürəyidir. Xalq ruhu Musa Ələkbərlinin yaradıcılının şah damarı, başlıca, fərqləndirici keyfiyyətidir. Bunu bizə "pıçıldayan" şeirlərinin hüceyrəsi statusunu daşımaq hüququ qazanmış sözləridir. Məs:

Dost, bu Qarabağdı, qara baxt deyil,
Soruş ürəyindən: vaxtdı, vaxt deyil?!
Hər şeyin olsa da yaşamaq deyil,
Dünyaya qeyrətsiz gəlib yaşamaq!

Belə misralar Musa Ələkbərli kimdir, o necə şairdir? Suallarının tutarlı cavabıdır. Yaxud:

Gözümdən, könlündən yağan dolu var,
Yurdun Təbrizləşən neçə qolu var?!
Torpağı gedənin bircə yolu var,
Yaşayıb ölmək yox, ölüb yaşamaq!

İstedadlı şairin misraları xalq ruhuna kökləndiyi üçün özündə hikmətli, müdrik sözləri yaşadır.

Musa Ələkbərlinin təməli, bünövrəsi xalq ruhu olan bədii-elmi yaradıcılığı buna görə də fəlsəfi məzmunludur. Burada bədii və yaradıcılıq sözləri arasında elmilik sözünün işlədilməsinə zəruri ehtiyac olduğu üçün həmin sözü əlavə etməyi lazım bilirik. Çünki elmsiz bədii yaradıcılıq yoxdur. Həmin fəaliyyət sahəsi üçün bədiilik və elmilik qoşa qanadlardır. Quş tək qanadla uça bilmədiyi kimi, elmilik olmayan yerdə də bədii yaradıcılıqdan söhbət gedə bilməz. Əsl şair, yazıçı həm də alimdir. Ona görə də belələrini yazıçı-alim adlandırmaq daha düzgündür. Musa Ələkbərli də həmin qrup yaradıcı şəxsiyyətlər sırasına daxildir. Böyük qəlb, düşüncə şairi M.Füzuli bədii yardıcılıqda elmiliyə önəmli dəyər vermiş, elmsiz şeiri təməlsiz, bünövrəsiz divara bənzətmişdir. Musa Ələkbərli özünün həmişə bənzərsiz, özəl yaradıcılığı ilə müasir Azərbaycan ədəbiyyatının, həmçinin filologiyasının zirvələrində dayanan Səməd Vurğuna da elmə yüksək dəyər verdiyini yaxşı bildiyi üçün bədii yaradıcılıqda elmilik prinsipini qorumağa, gözləməyə önəmli əhəmiyyət verir və hər zaman öz böyük ustadı, sələfi Səməd Vurğunun elmlə, biliklə bağlı yazdığı müdrik kəlamların onun yaradıcılıq yoluna işıq saldığını söyləyir. Elə buna görə də mənalı zəhmətlə dolu, zəngin yaradıcılıq yolunda inamlı addımlar atan Musa Ələkbərli ədəbi fəaliyyətində bədiiliklə elmiliyin nümunəvi harmoniyasını yaratmağı bacarır. Şair yaradıcılığına alovlu məhəbbət bəslədiyi dahi sələfi Səməd Vurğunun elmi" böyük qüdrətiylə silahlanan bir ordunun da, sərkərdənin basılmazlığı, həqiqəti idrakları ilə kəşf edənlərin insanlığı son zinətini yaratdıqlarım, insan oğlunun yalnız elmin nəfəsiylə dəniz kimi, ümman kimi aşıb-daşdığını, elmin gücünün kilidlənmiş dənizlərə yol açdığı haqqında söylədiyi, yazdığı olduqca dəyərli, əbədiyaşar fikirlərinə dərin hörmətlə, məhəbbətlə yanaşdığına, onlardan mənəvi güc aldığına görə yetərincə yardıcılıq uğurları qazanmış və çoxsaylı oxucuların sevimlisinə çevrilə bilmişdir. Musa Ələkbərli bədii yaradıcılıqla elmi yaradıcılıq arasında bir ümumi oxşarlıq, bənzərlik gördüyü üçün sayılıb-seçilən, tanınan şairlər cərgəsindədir. Əslində bədii və elmi yaradıcılıq qolları arasındakı harmoniya, qırılmaz tellərlə bağlılıq onların bir-birini tamamladığının aydın göstəricisidir. Hər ikisi yaradıcılıqdır. Eyni adın əvvəlindəki bədii və elmi təyinləri onları fərqləndirir. Həm bədii, həm də elmi fikir, düşüncə yaradıcılıq prosesinin elementləridir. Yazıçı da alim kimi düşünür. Eləcə də alim elmi yaradıcılıqda qazandığı uğurlardan ilham alır. Hər ikisi yaradıcıdır, xalqa xidmət göstərirlər. Lakin qədərincə normal səviyyəli şairə, yazıçıya alim demək mümkündür. Yazıçı (şair, nasir və dramaturq) öyrənilməsi və öyrədilməsi vacib sayılan hansısa məsələni, problemin bədii kəşfini qarşıya məqsəd qoyursa, alim məsələni, problemi elmi şəkildə kəşf etməyi qarşıya məqsəd qoyur. Ancaq alim yaradıcı şəxs olsa da, müəyyən ixtirası, kəşfi ilə elmə yenilik gətirsə də, şair-alim, alimnasir, alim-dramaturq deyilməsi təbii səslənmir. Ancaq yaradıcılıq istedadı, ilhamı həm yazıçı, həm də alim üçün vacib şərtdir. Yəni ilhamsız, istedadsız nə bədii, nə də elmi yaradıcılıq sahəsində qarşıya qoyulan məqsədi həyata keçirmək mümkün deyildir. Lakin bəzi elmi dərəcəsi və elmi adı olan şəxslərin şair nasir, eləcə də dramaturq, həmçinin elmi dərəcəsi və elmi adı olan yazıçılar da vardır. Belələri hər iki yaradıcılıq qolunda çalışmaq, qabiliyyətli, istedadı ilə seçilirlər.

Burada biz yalnız ya bədii yaradıcılıqları, ya da təkcə elmi yaradıcılıqları ilə tanınanları qarşılaşdırır və onlar haqqında fikrimizi söyləyirik. Ancaq göstərdiyimiz kimi hər iki yaradıcılıq növü ilə məşğul olanlar da vardır.

Məsələn, B.Vahabzadə, İ.Şıxlı, Əli Rza Xələfli və s.talantlı ziyalılar yaradıcılığın hər iki qolunda axtarışlar aparmış, hər iki sahədə uğurlu tapıntılar adlandırılmağa layiq əsərlər yaratmışlar.

*(Davamı var)*